# Ölüm var ki...

**Genetiklik**

İnsan dünyaya göz açar; ilk öncə ağlayaraq səsini, harayını hiss etdirər, həyat işığı gözlərini qamaşdırdıqca ətrafı seyr edər. Həyatın gözəlliyini doya-doya ciyərlərinə çəkərək dərk etməyə, dünyada rəngləri, səsləri öz aləmində nizamlamaya çalışar. Bax, elə yaşamaq mücadiləsi də belə başlar insan ömründə; kimi özünü dərk edər, kiminə dərk etdirərlər. Özü dərk edənlər gələcəkdə kamil biri kimi yetişər və onlarda vicdan formalaşmağa başlar. Deyirlər sözün atası ağıl, anası dildir. Bu da insanın genetik kodunun açarıdır. İnsan üçün ta yaranışdan ən çətin şey hər gün insan olaraq qalmaqdır. Bu isə insanlarda genetikdir.

İnsan ömrü fəlsəfədir, onu hər kəs oxuyub dərk edə bilməz. Onu dərk etmək üçün “dərrakə” lazımdır, bu isə ağılla ürəyin birliyidir. Bu birlik isə dəli sellə kövrək bulaq olmaqdır. Şair M. Araz demiş:

***Qar olmasa, sel olmasa***
***Bulaq da olmaz,***
***Dəli seləm, kövrək bulaq...***

Bax, əsl vətən övladları məhz sel kimi coşqulu, bulaq kimi kövrək bir ürək sahibləridir. Bizim igid Vüqarımız kimi.

**Tanışlıq**

Səmədli Vüqar Vaqif oğlu 1992-ci ildə fevralın 20-də rayonumuzun Yengicə kəndində doğulmuşdur. Ailənin 4 övladından ən kiçiyi idi. Böyüdükcə körpə qəlbində arzularının da sayı artırdı. Ata-anasının qayğılı nəvazişi, bacılarının və qardaşının mehribanlığı, kəndin təbiətinin təbii gözəlliyinin hər anının “dadını duyaraq” böyüyürdü... Ancaq onun bu qayğılı uşaqlıq xoşbəxtliyi uzun sürmədi. Atası Vaqif maşından ot boşaldarkən yıxıldı, onun diz qapağı ağır zədələndi. Uzun müddət yatağa məhkum oldu... o zaman Vüqar Yengicə məktəbinin 4-cü sinfində oxuyurdu. Qəlbindəki ilkin arzuları pərən-pərən düşdü. Ailənin dolanışıq tərzi çətinləşdi. Özündən 2 yaş böyük qardaşı Vüsal və Vüqar atasının qəfil nasazlığından sonra sanki böyüdülər, ailənin yaşayışını təmin etmək üçün meşənin təbii sərvətlərini toplayaraq satdılar, həyətyanı təsərrüfatda çalışan ana-bacılarına dayaq durdular. Atası Vaqif bəy deyir ki, bu körpə qardaşlar mənə:

- Sənin cüt qollarınıq, ata,-dedilər...



Vüqar 1998-2007-ci illərdə kənd məktəbində orta təhsil almışdı. Ailə yükünü çiyinlərinə götürən qardaşlar öz arzularının səmtini dəyişsə də, halallıq, doğruluq, zəhmət onların həyat yolunun qayəsi oldu...

2010-cu ilin aprel ayında Vüqar həqiqi hərbi xidmətə çağrılır. O, Bakı şəhərində “N” saylı hərbi hissədə sülhməramlı qüvvələrdə hərbi xidmətdə olur. 2011-ci ildə hərbi xidmətini başa vuraraq kəndə qayıdır. Vüqar tikinti işlərində fəhlə kimi əmək fəaliyyətinə başlayır. Ailənin dolanışıq tərzini yaxşılaşdırmaq üçün bir neçə həmyaşıdı ilə Çeçenistan Respublikasına gedir və orada öz əlinin zəhməti ilə işini davam etdirir.

**Vətəndaş adı**

***Vətən sevgisində halal zəhmət özüldür***
***Gedən unudulur, gedən unutmur,***
***Qərib ürəyində bir səs uyuyur:***
***Vətən unudulmur, vətən unutmur.***

Dünyanın hansı səmtində olsa da qəlbində vətən sevgisi olanlar doğulduğu ana vətəninə, yurduna aid olar, xalqının hər anını düşünər, özününküləşdirər. Qəlbi vurduqca vətən deyər.

Yurdumuzumn 20 faizinin mənfur qonşularımızın öz havadarlarının xain məqsədləri sayəsində əsir olması, 30 ilə yaxın bir müddət ərzində həmvətənlərinin öz ocağından, məkanından qovulması, əzizlərindən perik düşməsi Vüqarı həmişə düşündürərdi. Xüsusilə vətəndən uzaqda yaşayan və işləyən bir gənc üçün ölkəsinin bu problemi daha ürəkağrıdıcı idi. Şəhid olan həmvətənlərinin narahat ruhları onun yuxularından belə uzaqlaşmazdı. Vətəndaş adının əsl sahibi vətənini düşünənə məxsusdur.

2020-ci ilin iyul ayında baş verən Tovuz hadisələri Vüqarı daha çox sarsıtdı. Polad Həşimov kimi bir generalın və yüksək rütbəli hərbçilərin şəhid olması onun erməni quldurlarına qarşı qisas və nifrət hissini daha da artırdı. Vüqar ölkəsinə qayıtmaq istəsə də, məlum pandemiyaya görə bir müddət işlədiyi ölkədən ölkəmizə qayıda bilmədi. Lakin 2020-ci ilin 27 sentyabrında ölkəmizin prezidenti, Ali Baş Komandan İlham Əliyevin müraciəti onun Azərbaycana gəlişinə mane ola bilmədi. Oktyabrın 1-də Azərbaycana gəldi və rayon hərbi komissarlığına gedərək könüllü olaraq cəbhə bölgəsinə getməsi üçün müraciət etdi. Oktyabrın 5-də cəbhə bölgəsinə yola düşdü. əvvəlcə Ağcəbədidə “N” saylı hərbi hissəyə, sonra döyüş bölgəsinə yollandı. Kəşfiyyatçı-döyüşçü Zəngilan, Qubadlı, Füzuli və Cəbrayılın azad olunmasında fəal iştirak edir, igidliklə döyüşür. Son döyüşü isə Şuşanın Daşaltı kəndində olur. Noyabrın 2-də şəhid olur.

**Gün əvvəldən doğar, - deyiblər**

Uşaq ikən qəlbindəki bir yığın arzular pərən-pərən düşdü. Oxumaq, təhsil almaq istəyini xəstə ata və ailənin dolanışıq tərzinə qurban verdi. Gənc ikən birini sevdi... sevdiyinin də onun sevgisinə layiq olmadığını hiss etdi və bu istəyini də qəlbinin dənizinin dərinliyinə yuvarlatdı. Bəlkə də öz obasından yad ölkəyə getməsi sevgisindən uzaqlaşmaq istəməsi olmuşdur. Vətənini qalib ölkə kimi görmək arzusu gözlərində qaldı. əlində bayraq zəfər sevinci ilə obasına qayıtmaq istəyi də... doğru, bayrağı ilə gəldi kəndinə... Ancaq bayrağını kəfən seçərək! Anası Rəqimə, bacıları Aynur, Aygün Vüqarın bəy stolunu, toy maşınlarını qırmızı lentlə bəzəyəcəkdi. Ancaq atası vətənin al qırmızı bayrağına bürünmüş “dağ kimi” oğlunu təhvil aldı... Son dəfə qardaşı Vüsal da onunla görüşə bilmədi, dəfnə çata bilmədi, çünki İrkutskdan gələn yol uzaq idi... Ata da böyük itkidə, sarsıntıda oğullarsız-biri yad ölkədə, biri şəhid olduğu üçün “tək” qaldı, mənən öldü...

**Şəhidlərin məskəni könüllərdir**

Doyunca balasını görməyən, söhbətlərini dinləməyən ana, ata Vüqarın son danışığını mənə səsləndirdi. Vüqar demişdi ki, vətən zəhmətsevərlərin, halal çörək yeyənlərindir. İmkanlılar harada yaşasa ora onun üçün vətəndir. Kasıb təbəqənin isə bir vətəni olar - Ana Vətəni. Vətən harayına, çağırışına da qəlbində torpaq sevgisi olan gedər.

Ölüm haqqdır, öləcəyiksə, qoy vətən uğrunda ölək, şəhid olaq!

Dedi də, sözünə əməl etdi də Vüqar! Ölümündən sonra “Vətən uğrunda”, “Döyüşdə fərqləndiyinə görə”, “Qubadlının azad olunmasına görə” medalları ilə təltif olunmuşdur. Ancaq idmanla məşğul olan “dağ kimi” bir igidin döyüş bölgəsində qazandığı ən ali ad “Şəhid” adı idi. Bu ölüm hər insana nəsib olmur.

İnsanlar var ki, canlı ikən yeknəsək bir ömür yaşar, ömür var ki, pisliklərdən yoğrular, ömür var ki, insanlığa məxsusdur, ömür də var ki, əbədilik qazanar. Ölüm var ki, yaşayarkən ölüdür, belə halda elə ölməsə yaxşıdır. Ölüm də var ki, cismənilikdən əbədiyyətə yol açar! Belə ölüm ölümlərin naxışıdır!

Şəhidlik isə zirvələrin fatehinə dönüb əbədiyyətə qovuşaraq, tarixin bir cizgisinə çevrilməkdir. Vüqar və onun qəhrəman silahdaşlarına nəsib olan ölüm kimi!...

**BİBİXANIM.**

# Bulaq kompleksi inşa edilib

Qəbələ rayonunun Aydınqışlaq kəndində Birinci Qarabağ müharibəsində şəhidlik



zirvəsinə ucalmış şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə inşa edilmiş bulaq kompleksinin açılışı olub. Açılış tədbirində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları, şəhidlərin ailə üzvləri və təhsil aldıqları məktəbin kollektivi iştirak ediblər. Tədbir iştirakçıları tərəfindən əvvəlcə Aydınqışlaq kənd məzarlığında birinci Qarabağ müharibəsi şəhidlərinin məzarları ziyarət edilmiş, üzərinə gül dəstələri qoyularaq, xatirələri ehtiramla yad edilmiş, ruhlarına dualar oxunmuşdur. Bulaq kompleksinin açılış tədbirində çıxış edənlər 2020-ci il sentyabrın 27-də başlanan və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində qazanılan qələbənin tarixi əhəmiyyətindən, şəhidlərin şərəfli döyüş yollarından danışmış və onların xatirələrinin heç bir zaman unudulmayacağını vurğulamışlar. Sonda məktəblilərin ifasında hərbi vətənpərvərlik mövzusunda şeirlər səslənmiş və fləşmob nümayiş etdirilmişdir. Birinci Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

### Zirvələrdə yaşayanlar

# Ölüm sevinməsin qoy

**Zalım öyünməsin zülümləriylə,**
**Min bir böhtanıyla, min bir şəriylə.**
**Həqiqət uğrunda ölümləriylə**
**Ölümü kamına çəkdi şəhidlər!**

Şəhidlər tariximizi yeni yazanlardır. Şəhidlər vətənpərvərliyin ən pik nöqtəsinə ucalanlardır. Şəhidlər əbədi baharömürlülərdir. Onlar hər bir bahar övladının qəlbində əbədi yaşayan fədailərdir. Qəbələnin vətən uğrunda şəhid olan öv-









ladları heç vaxt unudulmur, onların şücaətləri yaddan çıxmır. Son günlər cənnətməkanda 2-ci doğum günləri olan şəhid oğullarımızın xatirələri təkrar qəbələlilər tərəfindən çözələnmişdir. Onların ailələri ilə görüşlər təşkil edilmiş, məzarları ziyarət olunmuşdur.

Bu şəhidlərimiz Soltannuxa kəndindən Qoşqar Müşfiq oğlu Üzeyirov (26-I-2001-7-XI-2020), Yemişənli kəndindən Təbriz Ramiz oğlu Qasımov (16- II-1993/ 6-XI-2020), Vüqar Vaqif oğlu Səmədli (20- II-1992/3-XI-2020), Vasif Akif oğlu Süleymanov (24- II-2002 / 6-X-2020)-dur. Onların doğum günləri rayonumuzun müxtəlif idarə və müəssisələrində çalışan və ictimai təşkilatların nümayəndələri, həmçinin şəhid ailələri tərəfindən qeyd olunmuş, ailələri və şəhid məzarları ziyarət edilmişdir.

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**